www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-15 (1798) 17 sentyabr 2024-cü il



## Azərbaycan Tibb Universitetində Bilik Günü qeyd olunub

**Rektor, professor Gəray Gəraybəyli: Vaxt gələcək, indiki tələbələrin böyük qismi Qarabağda həkim kimi çalışacaq**

səh. 2

### ATU-nun rektoru kanadalı nazir müavini ilə görüşüb

səh. 2

### I kursa qəbul olunan tələbələrlə fakültələrdə görüşlər keçirilib

səh. 5

### Əməkdaşımız nüfuzlu beynəlxalq qurumun Baş katibi seçilib

səh.3



### "Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə"

Rektor, professor Gəray Gəraybəyli forumda iştirak edib

səh. 2

### Tələbələrin bilik və bacarıqları yüksəldikcə, universitetimizə maraq da artır

*Dekan İsrail Məhərrəmbəyli: Hər bir fənn üzrə bir ana kitabın hazırlanması üzərində işləyirik*

səh. 4

### Yay tətilindən sonra uşaqların məktəbə adaptasiyası

*Şagirdlərin sağlamlığı və yüksək iş qabiliyyəti yuxu rejimindən geyimədək bir çox faktorlardan asılıdır*

səh. 6



### İstanbulda Türk Dövlətlərinin I Tibb Konqresi keçirilib

Təşkilatçılar sırasında yer alan Azərbaycan Tibb Universiteti, eyni zamanda tədbirdə geniş tərkiblə təmsil olunub

səh.3

# Azərbaycan Tibb Universitetində Bilik Günü qeyd olunub

## Rektor, professor Gəray Gəraybəyli: Vaxt gələcək, indiki tələbələrin böyük qismi Qarabağda həkim kimi çalışacaq

**Bilik Günü ölkəmizin bütün təhsil ocaqlarında olduğu kimi, Azərbaycan Tibb Universitetində də təntənəli şəkildə qeyd edilib. Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan bayram tədbirinin moderatoru, Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının V kurs rezidenti Küşvər Seyidova təbrik nitqi üçün ilk sözü universitetin rektoru, professor Gəray Gəraybəyliyə verib.**




Professor-müəllim heyətini və tələbə kontingentini Bilik Günü münasibətilə təbrik edən professor Gəray Gəraybəyli əsas təbrikin böyük ATU ailəsinə yeni qədəm qoyan I kurs tələbələrinə ünvanlandığını vurğulayıb: “Siz daim çalışırdınız, əziyyət çəkirdiniz. Zəhmətiniz hədər getmədi. Qəbul imtahanında çox yüksək nəticə göstərərək ölkəmizin ən nüfuzlu ali məktəbləri arasında xüsusi yer tutan Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazandınız. Şərəfli olmağı ilə yanaşı, həm də çox çətin, mürəkkəb, eyni zamanda məsuliyyətli bir peşə seçmisiniz. Çünki həkimlik dünyada ən vacib, yüksək bilik və insani hisslər tələb edən müqəddəs bir peşədir. Bizim professor-müəllim heyətinin əksər üzvləri iki müqəddəs peşənin – müəllimlik və həkimliyin daşıyıcılarıdır”.

Rektor, ölkə rəhbərliyi tərəfindən səhiyyəyə, tibb təhsilinə hər zaman xüsusi diqqət yetirildiyini deyib: “Ümummilli Liderimiz Heydər Əliyev həkimlərə xüsusi qayğı ilə yanaşırdı. Ulu Öndər öz çıxışlarının birində vurğulamışdı ki, həkimlər mənim ən yaxın dostlarımdır. Ulu Öndərin siyasəti bu gün də cənab Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla həyata keçirilir. Bunun bariz nümunəsi olaraq bir faktı deyim ki, əgər 6 il qabaq universitetimizə qəbul olunan tələbələrin ən azı 50 faizi ödənişli əsaslarla təhsil alırdısa, bu ilki tələbələrin 85 faizdən çoxu dövlət hesabına oxuyacaq. Bu, ölkəmizin, dövlətimizin həm gəncliyə, həm tələbələrə, həm də tibb elminə olan böyük qayğısının təsdiqidir”.

Şanlı tarixə malik Azərbaycan Tibb Universitetinin gələn il 95 yaşının tamam olacağını xatırladan rektor qeyd edib ki, son illər aparılan islahatlar nəticəsində universitetimiz nüfuzlu dünya universitetləri şəbəkəsinə daxil olmaq yolunda böyük addımlar atıb, bu yolda artıq uğurlarımız da var: “Belə ki, 2022-ci ildə Azərbaycan universitetləri içərisində ilk dəfə olaraq ATU-nun 4 tədris proqramı dünya miqyaslı akkreditasiya şirkəti tərəfindən beynəlxalq akkreditasiyadan keçirilib. Ötən ildən başlayaraq, universitetimiz dünya universitetlərinin beynəlxalq reytinqində yer tutmaq üçün tədbirlərə başlayıb. Əsas məqsədimiz universitetdə tədris olunan proqramları, aparılan elmi-tədqiqat işlərini beynəlxalq səviyyəyə qaldırmaqdır”.





Professor G.Gəraybəyli onu da qeyd edib ki, işğaldan azad olunan Qarabağda bu gün böyük quruculuq işləri aparılır: “Yeni, müasir xəstəxanalar tikilir. Mən əminəm ki, burada əyləşənlərin böyük qismi gələcəkdə həmin ərazilərdə həkimlik fəaliyyətini davam etdirəcək. Bir daha hər birinizi Bilik Günü münasibətilə ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı və təhsilinizdə uğurlar arzulayıram!”

Sonra Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizova çıxış edərək ürək sözlərini bölüşüb. “Bu universitet sizə “alma-mater” olacaq” – deyən professor, onların burada öz peşələrinin dərinliklərinə, elmi əsaslarına yiyələnəcəklərini söyləyib. O, həkimlik peşəsi üçün patriotluq və peşəkarlığın vacibliyini xatırladaraq, gələcəyin həkimlərini insanlara qarşı nəzakətli, ədalətli, mərhəmətli olmağı çağırıb, hər birinə sağlam can və sağlam ruh diləyib.

Toplantıda valideynlər adından danışan Teymur Məmmədov bir vaxtlar özünün təhsil aldığı universitetə indi övladının qəbul olunmasından qürur duyduğunu bildirib. Yeni dərs ili münasibətilə ATU-nun pedaqoji kollektivini, tələbələri və onların valideynlərini təbrik edib.

Azərbaycan Tibb Universitetində təhsilin 3 dildə aparıldığı və son illərdə ingilis bölməsinə tələbatın çoxaldığı, bu bölməni təkcə əcnəbi deyil, azərbaycanlı tələbələrin də seçdiyi vurğulanıb.

Tələbələr adından 697 balla ingilis bölməsinə daxil olan II Müalicə-profilaktika fakültəsinin tələbəsi Nəzrin Əhmədova çıxış edib. O, gələcəkdə ölkə üçün savadlı kadr olmaq, insanların sağlamlığının keşiyində durmaq arzusunda olduqlarını, onlara göstərilən etimadı doğruldacaqlarına əminliyini bildirib.

Tədbir iştirakçıları Bilik Gününə həsr olunmuş filmi də izləyiblər.

**Arif MƏMMƏDLİ**

# “Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə”

## ATU-nun rektoru, professor Gəray Gəraybəyli forumda iştirak edib

**Elm və Təhsil Nazirliyi ilə “Times Higher Education” (THE) Beynəlxalq Reytinq Agentliyinin birgə təşkilatçılığı ilə "Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə" mövzusunda forum keçirilib.**




Forumda nazir Emin Əmrullayev, energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ADNSU-nun rektor əvəzi, dosent Vazeh Əskərov, SDU-nun rektoru, dosent Rüfət Əzizov və digər ali təhsil müəssisələrinin rəhbər şəxsləri, aidiyyəti dövlət qurumlarının təmsilçiləri, eyni zamanda xarici universitetlərin mütəxəssisləri iştirak ediblər.

COP29 ərəfəsində keçirilən forumun məqsədi iqlim dəyişikliyi ilə bağlı aktual məsələlərin müzakirəsini aparmaq, effektiv həll yolları təklif etmək və bu sahədə alimlər, sənaye liderləri, tələbələr və ictimaiyyət arasında əməkdaşlığı gücləndirməkdən ibarət olub.

Çıxışçılar COP29-un Bakıda keçirilməsinin ölkəmiz üçün tarixi bir hadisə olduğunu, bu mövzuda forumun universitetlərimiz və geniş mənada təhsil sistemi üçün faydalı olacağına əminliklərini bildiriblər. Azərbaycanın ali təhsil müəssisələri ilə yanaşı, xarici universitetlərdən nümayəndələrin, elm adamları və mütəxəssislərin bir araya gələrək göstərdikləri təşəbbüs yüksək qiymətləndirilib. Rəsmi çıxışlardan sonra forum işini panel müzakirələrlə davam etdirib.

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə Kanadanın Ontario əyalətinin Psixi sağlamlıq və asılılıq problemləri üzrə nazir müavini Honourable Michael Tibollo arasında görüş keçirilib.**



# Rektor kanadalı nazir müavini ilə görüşüb

## Psixiatriya və psixologiya sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub

Kanadalı nazir müavini Azərbaycana gəlişindən məmnunluğunu bildirib. O öz ölkəsində insanların mental sağlamlığının qorunması istiqamətində görülən işlərdən, psixoloji mərkəzlərin fəaliyyətindən, bullinglə üzləşmiş məktəblilərə mənəvi dəstəkdən və psixoloji yardımın növlərindən danışıb. Qonaq bu sahədə beynəlxalq əməkdaşlığın və qabaqcıl təcrübə mübadiləsinin vacibliyini vurğulayıb.

Professor G.Gəraybəyli qonağa Azərbaycanda son illərdə psixiatriya və psixologiya sahəsində görülən işlər, əldə edilmiş uğurlar, bu istiqamətdə müxtəlif beynəlxalq qurumlarla əməkdaşlıqlar və birgə keçirilən layihələr haqda məlumat verib. Qeyd olunub ki, ölkəmizdə əhalinin sağlamlığının qorunması məqsədilə mütəmadi işlər görülür və dövlət tərəfindən müvafiq qanunlar qəbul edilir. Rektor ATU-dakı təhsil sistemi, psixiatriya və psixologiya üzrə səriştəli kadrların hazırlanması haqqında danışıb.

Eyni zamanda Azərbaycanın baş psixiatrı olan professor G.Gəraybəyli, ölkəmizdə bu sahənin daha da müasirləşməsinin hədəfdə olduğunu nəzərə çatdırıb.

Daha sonra gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub və müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova, eləcə də Diasporla İş üzrə Dövlət Komitəsinin III ərazi şöbəsinin mütəxəssisi Fidan Rüstəmzadə iştirak edirdilər.

# İstanbulda Türk Dövlətlərinin I Tibb Konqresi keçirilib

## Təşkilatçılar sırasında yer alan Azərbaycan Tibb Universiteti, eyni zamanda tədbirdə geniş tərkiblə təmsil olunub

**Sentyabr 5-8-də Türkiyənin İstanbul şəhərindəki Yeditepe Universitetində Türk Dövlətlərinin I Tibb Konqresi (II Tibbi Forum) keçirilib. Azərbaycan Tibb Universiteti və Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyətinin də təşkilatçılar sırasında olduğu tədbirdə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və Türkmənistandan bir çox universitet və tibb cəmiyyətlərinin nümayəndələri iştirak edib.**



Konqresin açılış mərasimində təşkilat komitəsinin koordinatoru, professor Erkut Attar, Yeditepe Universitetinin rektoru, konqresin həmsədri, professor Canan Aykut Bingöl, universitetin qurucusu Bedreddin Dalan, Naxçıvan Dövlət Universitetinin rektoru, konqresin həmsədri Elbrus İsayev, Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev, KKTC Yakın Doğu Universitetinin rektoru, professor Tamer Şanlıdağ, Bişkek Beynəlxalq Tibb İnstitutunun rektoru, professor Samigullina Alfiya, Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin prorektoru, professor Abılay Baimaxanov, Daşkənd Pediatriya Tibb İnstitutunun prorektoru, professor Səidə Səidxocayeva, Türkmənistan Dövlət Tibb Universitetinin prorektoru, professor Ayboleki Taçmuxəmmədova, Azərbaycan Tibb Universitetinin prorektoru, professor Rauf Bəylərov və konqresin məsul katibi, Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyəti İdarə Heyətinin sədri, professor Müşviq Həsənov çıxış ediblər.

ATU-nun rektoru, professor Gəray Gəraybəylinin salamlarını konqres iştirakçılarına çatdıran R.Bəylərov belə bir mötəbər tədbirin təşkilatçıları sırasında yer almağın qürurverici olduğunu deyib. Bildirib ki, bu konqres türk dünyasının tibb sahəsindəki əməkdaşlığını möhkəmləndirmək, ortaq problemlərə həll yolları tapmaq və tibb təhsilini daha yüksək səviyyəyə qaldırmaq baxımından mühüm əhəmiyyət kəsb edir: "Bugünkü konqres tibb sahəsində qabaqcıl elmi nailiyyətlərin paylaşılması, yeni texnologiyaların tətbiqi, həmçinin türk dünyasında tibbin inkişafı üçün ortaq strategiyaların müəyyənləşdirilməsində bir platformadır. Biz inanırıq ki, bu tədbirin sayəsində türk dünyasının tibb sahəsindəki potensialı daha da genişlənəcək və birgə səylərimizlə gələcək nəsillərə daha sağlam və rifahlı bir cəmiyyət bəxş edəcəyik".

Konqresdə çıxış edən Müşviq Həsənov Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyətinin bir tibb təşkilatı olaraq bu cür tədbirlərin təşkilində fəaliyyətini davam etdirəcəyini diqqətə çatdırıb. Eyni zamanda, tibb cəmiyyətləri arasında əlaqələrin gücləndirilməsi üçün elmi-tədqiqat və konqreslərin təşkili istiqamətlərində əməkdaşlıq layihələrinə daha geniş dəstək verilməsinin vacibliyini vurğulayıb.



Açılış tədbirinin bədii hissəsində Azərbaycan və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədova, "Qarabağ" muğam qrupunun rəhbəri, xalq artisti, Azərbaycan Milli Konservatoriyasının professoru Mənsum İbrahimovun rəhbərliyi ilə muğam heyəti, türk sənət musiqisinin solistləri Eda Karaytuğ, İlker Çelik, Nigar Akan və digər sənətçilərin ifalarında konsert proqramı təqdim olunub.



Daha sonra konqres öz işini bir neçə gün ərzində bölmə iclasları ilə davam etdirib.

Məlumat üçün bildirək ki, universitetimiz Türk Dövlətlərinin I Tibb Konqresində geniş tərkibdə təmsil olunub. Yuxarıda adları çəkilən əməkdaşlarımızla yanaşı, I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov, Klinik allerqologiya və immunologiya kafedrasının müdiri, əməkdar həkim, professor Lala Allahverdiyeva, ATU-nun Tədris Cərrahiyyə Klinikasının professoru, Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri Vaqif Qələndər, Ağız və üzçənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov, Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanova və digər əməkdaşlar, o cümlədən tələbələrimiz bu mötəbər tədbirin iştirakçıları olub.

# ATU-nun professoru nüfuzlu beynəlxalq qurumun Baş katibi seçilib

## Dünya Tibbi Hüquq Assosiasiyasının İdarə Heyəti Vüqar Məmmədova böyük etimad göstərib

**2024-cü ilin iyul ayında İndoneziyanın Batam şəhərində keçirilən 28-ci Dünya Tibbi Hüquq Konqresində ATU-nun Məhkəmə təbabəti kafedrasının professoru, tibb və hüquq elmləri doktoru Vüqar Qurban oğlu Məmmədov Dünya Tibbi Hüquq Assosiasiyasının (DTHA; WAML, World Association for Medical Law) Baş katibi seçilib.**







Professor V.Məmmədovun namizədliyi adıçəkilən assosiasiyanın yeni seçilmiş prezidenti, belçikalı professor Tyerri Vansvivelt tərəfindən irəli sürülüb. Bu yüksək vəzifəyə daha iki ölkədən - İsrail və Macarıstandan namizədliklər qeydə alınmışdı. Macarıstanlı professor Cudit Şandor öz namizədliyini azərbaycanlı alimin lehinə geri götürüb və Assosiasiyanın 33 nəfərdən ibarət İdarə Heyətinin üzvləri gizli səsvermə yolu ilə Vüqar Məmmədovu səs çoxluğu ilə Baş katib seçiblər.

İxtisasca məhkəmə-tibbi ekspert olan Vüqar Məmmədov həm tibb, həm də hüquq üzrə elmlər doktorudur, ölkəmizdə və xaricdə yaxşı tanınan alimlərimizdəndir. Azərbaycan, Rusiya, ABŞ, Böyük Britaniya, Çin, Türkiyə, Pakistan, İndoneziya, Ukrayna, Qazaxıstan, İran, Litvanın 18 universitetində professor və dəvətli professor kimi çalışıb, 54 ölkədə məhkəmə təbabəti, tibbi hüquq, insan hüquqları, bioetika üzrə mühazirələr oxuyub, 360 elmi işin müəllifidir. 2008-ci ildən DTHA-nın üzvü, 2012-ci ildən Assosiasiyanın İdarə Heyətinin, 2016-cı ildən İcra Komitəsinin üzvü və Xəzinədarı, 2018-ci ildən Birinci vitse-prezidenti, Təhsil Komitəsinin rəhbəri, 23-cü (Bakı, 2017), 25-ci (Tokio, Yaponiya) və 27-ci (Vilnüs, Litva) Dünya Tibbi Hüquq konqreslərinin elmi proqramlarının rəhbəri olub. Professor Vüqar Məmmədov, həmçinin UNESCO-nun Bioetika kafedrasının Azərbaycan bürosunun rəhbəri, Ümumdünya Səhiyyə Təşkilatının (WHO, World Health Organization) əlillik, reabilitasiya və köməkçi texnologiyalar üzrə eksperti, İpək Yolu ölkələrinin Məhkəmə Ekspertizaları Assosiasiyasının vitse-prezidentidir. Eləcə də Avropa Səhiyyə Hüququ Assosiasiyasının vitse-prezidenti olub.

2019-cu ildən o, Beynəlxalq Cinayət Məhkəməsində (İCC, İnternational Criminal Court) DTHA-nı təmsil edib, 2022-ci ildə isə İCC Baş Prokuror Ofisində məhkəmə-tibbi ekspertiza üzrə dəvətli mütəxəssis qismində 6 ay ərzində çalışıb.

1967-ci ildə Belçikada tibb və səhiyyədə insan hüquqları, hüquqa aid multikultural və fənlərarası problemlərin tədqiqatı məqsədilə hüquq, tibb və məhkəmə təbabəti üzrə 9 nəfər dünyaşöhrətli mütəxəssis tərəfindən yaradılmış Dünya Tibbi Hüquq Assosiasiyası BMT-nin UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Haaqa Beynəlxalq Cinayət Məhkəməsi, bir çox beynəlxalq və milli peşəkar assosiasiyalar ilə əməkdaşlıq edir. Təsisçilərindən biri, «ulduzların eksperti» adlandırılan, Amerikanın əfsanəsinə çevrilmiş yaponiyalı professor Tomas Noquçi ABŞ-da yaşadığı üçün DTHA-nın qərargahı hal-hazırda bu ölkədə yerləşir. Dünyanın ən tanınmış məhkəmə-tibbi ekspertlərindən biri hesab edilən professor Noquçi 22 il Hollivudun yerləşdiyi Kaliforniya ştatının Baş məhkəmə-tibbi eksperti olduğu üçün ABŞ prezidenti Con Fijerald Kennedi, senator Robert Kennedi, Hollivud ulduzları Merilin Monro, Vilyam Holden, Con Beluşi, Natali Vud, Gia Skala kimi məşhurların qətl və müəmmalı ölüm işlərinin tədqiqatına cəlb olunub.

Məhkəmə təbabəti elminə verdiyi xidmətlərə görə ABŞ hökuməti və Yaponiya imperatoru tərəfindən dəfələrlə təltif olunub. Tomas Noquçinin prezidentliyi dönəmində professor Vüqar Məmmədov onun rəhbərlik etdiyi İcra Komitəsində 6 il ərzində əvvəlcə Xəzinədar, sonra isə Birinci vitse-prezident qismində Assosiasiyanın işlərini idarə edib.

2017-ci ilin 11-13 iyul tarixlərində Bakıda JW Marriott Absheron otelində Paşa Holdinq və Türk Hava Yolları şirkətlərinin dəstəyi ilə 23-cü Dünya Tibbi Hüquq Konqresi keçirilib. Bakı konqresi DTHA üçün tarixi əhəmiyyət kəsb edib. Çünki tədbir Assosiasiyanın 50 illik qızıl yubiley konqresi olub və yarıməsrlik tarixində postsovet məkanında, Şərqlə Qərbin, Cənubla Şimalın birləşdiyi Avrasiyanın mərkəzində ilk dəfə keçirilib.

Konqresin açılış mərasimində professor Noquçi DTHA-nın Baş Assambleyasının qərarı ilə tibbi hüquq, bioetika və multikulturalizmin inkişafında böyük xidmətlərinə görə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya "WAML 50th Golden Anniversary Award" təltifi və DTHA-nın Fəxri Diplomunu təqdim edib. DTHA-nın təltifləri Mehriban xanım Əliyevanın bu sahədə apardığı elmi işlərinin nəticələrinin əhəmiyyətini, onun səhiyyə, təhsil və elm sahəsində rəhbərlik etdiyi layihələri, eləcə də sülh, tolerantlıq və qlobal təhlükəsizliyin dünyada bərqərar olması naminə sivilizasiyalar və dinlərarası multikultural dialoqun təbliğindəki səylərinin beynəlxalq elmi ictimaiyyət və hüquqşünaslar tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür.

Qeyd edək ki, DTHA-nın növbəti, 29-cu konqresi 2025-ci ilin 5-8 avqust tarixlərində Türkiyənin İstanbul şəhərində Ankara və İstanbul universitetlərinin, eləcə də İstanbul Büyükşehir Belədiyyəsinin dəstəyi ilə keçiriləcək. Konqres, adıçəkilən bələdiyyə başqanı və universitetlərin rektorları, ÜST-ün baş və regional direktorlarının çıxışlarından sonra "Vulnerability in 21st Century: Respect and Protection" mövzusunda öz işinə başlayacaq. Səhiyyə və tibdə hüquq və etik məsələlərə maraq göstərən alimlər, tədqiqatçılar, mütəxəssislər və tələbələrin konqresdə iştirakı nəzərdə tutulur. ATU əməkdaşları və tələbələrimiz də konqresdə iştirak, çıxış etmək, tezislər göndərmək üçün dəvət olunur. İştirak şərtləri https://wafml.memberlodge.org/ və https://wafml.memberlodge.org/Congress-Topics ünvanlarında yerləşdirilib.

Azərbaycan Tibb Universitetinin rəhbərliyi, o cümlədən Məhkəmə təbabəti kafedrasının əməkdaşları nüfuzlu beynəlxalq qurumun Baş katibi seçilməsi münasibətilə professor Vüqar Məmmədovu təbrik edir, ona gələcək fəaliyyətində uğurlar arzulayırlar.

# ATU-da 50-dən çox ölkənin vətəndaşları təhsil alır

**Universitetimizin dünyada yüksələn reytinqi ilə əlaqədar olaraq, xarici tələbələrin sayında ildən-ilə artım var**



**Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrin sayına görə ölkə üzrə yenə birincidir. ATU-nun Əcnəbi tələbələrlə iş üzrə dekanı, Farmakologiya kafedrasının baş müəllimi Natiq Bayramov bildirib ki, 509 dinləyici iyul ayının 4-6 tarixlərində 4 fəndən – Azərbaycan dili, kimya, biologiya və fizikadan universitetdaxili test üsulu ilə imtahan verərək hazırlıq şöbəsini bitirmiş hesab olunub:**

"Universitetin daxili əmri ilə həmin dinləyicilərə şəhadətnamə verilməsi üçün Elm və Təhsil Nazirliyinə rektorluq adından müraciət edilib. Artıq hazırlığı bitirən tələbələr ölkəmizə gəlir, yeni müqavilələr imzalayır, təhsil haqqını ödəyirlər. Əmr imzalandıqdan sonra müvafiq fakültələrin I kursunda təhsillərini davam etdirəcəklər".

Dekanın sözlərinə görə, Nazirlər Kabinetinin müvafiq əmrinə əsasən, dövlət dilləri ingilis dili və rus dili olan ölkələrin vətəndaşlarının müsabiqədən keçmək şərti ilə birbaşa I kursda təhsil almaq hüquqları da var. Belə ki, Rusiya Federasiyasından olan vətəndaşlar rus, Pakistan və Hindistandan gələnlər ingilis bölməsində təhsil almaq üçün əvvəlcə Elm və Təhsil Nazirliyinin portal. edu.az. saytında qeydiyyatdan keçirlər. Bundan sonra rektorun əmri ilə yaradılan komissiya müsbət rəy verərsə, birbaşa I kursa qabul edilirlər: "İndiyədək bu şərtlərlə qeydiyyatdan keçən tələbələrin sayı 40-dan çoxdur. Onu da vurğulamaq istərdim ki, Azərbaycanda təhsil alan 10 min xarici tələbənin təxminən 3 minə yaxını bizim universitetdədir. Bu ilk növbədə beynəlxalq akkreditasiyadan keçən universitetimizin dünyada gündən-günə artan reytinqi ilə əlaqədardır. Sevindirici haldır ki, 50-dən artıq ölkənin vətəndaşları universitetimizdə təhsil alır. Yaxın ölkələrdən - Türkiyə, İran və Rusiyadan gələnlər üstünlük təşkil etsə də, Hindistan, Pakistan, Afrika və ərəb ölkələri, İraq və İordaniyadan gələnlər də kifayət qədərdir. Hətta ABŞ və İsraildən də tələbələrimiz var. Yəni coğrafiya genişdir. 509 nəfərdən və birbaşa qəbul olanlardan əlavə, təxminən 60-a yaxın tələbənin Hindistandan birbaşa I kursa qəbul olunması gözlənilir".



Müsahibimiz keçən illə müqayisədə builki qəbulda artım olduğunu da deyib. Qeyd edib ki, ötən il hazırlıqdan keçən tələbələrin sayı 300-dən bir az artıq idisə, bu il onların sayı 500-dən çoxdur: "Bunlardan maddi vəziyyətlə əlaqədar bu il gəlməyənlər də ola bilər. Çünki biz onlara növbəti il üçün də şans veririk. Əgər universitetin proqramında dəyişiklik yoxdursa, növbəti il üçün də onların tələbə adı qüvvədə qalır. Eyni zamanda birbaşa I kursa qəbul olunan əcnəbi tələbələrin sayında da artım var. Keçən il 30 nəfər idisə, bu il 40-dan çoxdur. Müsabiqədən keçənlərin 50-dən çox olduğunu nəzərə alsaq, bu rəqəmin yenə də artacağı istisna deyil".

# Tələbələrin bilik və bacarıqları yüksəldikcə, universitetimizə maraq da artır

## Dekan İsrail Məhərrəmbəyli: Hər bir fənn üzrə bir ana kitabın hazırlanması üzərində işləyirik

**Azərbaycan Tibb Universiteti ölkəmizin ali təhsil müəssisələri arasında həmişə öz nüfuzu və reytinqi ilə seçilib. İstər ölkəmizdə, istərsə də xaricdə ATU-nun nüfuzunun ildən-ilə yüksəlməsində universitet rəhbərliyi tərəfindən həyata keçirilən islahatlarla yanaşı, savadlı, təşkilatçı, işini bilən kadrların da rolu danılmazdır. II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli də belə bacarıqlı mütəxəssislərdəndir. O, 8 ildir adıçəkilən fakültəyə uğurla rəhbərlik edir.**



Fakültənin fəaliyyəti, əldə olunan uğurlar, çatışmazlıqlar, tədrisdə yeniliklər, tələbə-müəllim münasibətləri, universitetə yeni daxil olmuş tələbələrin sənədlərinin qəbulu prosesi və digər məsələlərlə bağlı dekanın fikirlərini öyrəndik: "Hazırda universitetimizə daxil olan tələbələrin 1-ci kurs üzrə sənəd qəbulu davam edir. Biz əsasən dövlət sifarişi ilə olan tələbələrin sənədlərini qəbul edirik. 600 nəfərdən 520-si Azərbaycan, 65-i rus, 15-i isə ingilis bölməsinin payına düşür. I və II Müalicə-profilaktika fakültələrinə ümumilikdə 600 nəfərin qeydiyyatdan keçməsinə baxmayaraq, onlardan xarici ölkələrin ali məktəblərinə qəbul olunanlar da var. Onların seçiminə əsasən, bizə sənəd verənlərin dəqiq sayını sonda müəyyənləşdirə bilirik".



Universitetin tədris proqramı və bu sahədəki yeniliklərdən söhbət açan İ.Məhərrəmbəyli hər 5 ildən bir tədris proqramında standartların dəyişdiyini bildirdi: "Biz də iş planımızı həmin standartlara uyğun qururuq. Qeyd edim ki, fakültənin qarşısında bir neçə istiqamətdə məsələlər dayanır. Başlıca istiqamət tədrisin keyfiyyətli şəkildə təşkili məsələsidir. Sevindirici haldır ki, universitetimizə daxil olan istedadlı, yüksək bal toplamış tələbələrin sayı hər il artır. Bu çox yaxşı tendensiyadır. O cümlədən təkcə bu il universitetimizə 50-dən çox ölkədən tələbə qəbul olunub. Tələbələrin bilik və bacarıqları yüksəldikcə, analoji olaraq universitetimizə tələbə marağı da artır. Universitetimiz tədrisi dövlət standartları, Nazirlər Kabinetinin və Boloniya sisteminin qaydalarına uyğun qurur".

İ.Məhərrəmbəylinin verdiyi məlumata görə, Müalicə-profilaktika fakültəsində 2241 tələbə təhsil alır. Onların 600-dən çoxu xarici tələbələrdir: "2014-cü ilin standartları ilə təhsil alan tələbələrimiz gələn il məzun olacaq. 5-ci kursun tələbələri isə 2020-ci ilin standartları ilə təhsil alırlar. Təbii ki, yeni standartlara yeni fənlər və yeni ixtisaslar əlavə olunub. Bu da günün tələbidir. Məsələn, Kardiocərrahiyyə yeni fəndir. Biz əvvəllər kardiocərrahiyyəni ümumi cərrahiyyənin tərkibində tələbələrə tədris edirdik. İndi isə ayrıca bir fənn kimi tədris olunur. Plastik cərrahiyyə də yeni fənn kimi daxil edilib. Eləcə də Kardiologiya da ayrıca bir ixtisas kimi salınıb. Əvvəllər isə Daxili xəstəliklərin tərkibində öyrənilirdi.

Təbii ki, yeni ixtisasların əlavə olunması maddi-texniki baza tələb edir. Yeni bu istiqamətdə tələbələri öyrədən lazımi mütəxəssislər olmalıdır. Buna görə də universitet rəhbərliyi, eləcə də Tədris Departamenti aktiv iş aparır, universitetə ixtisaslı mütəxəssislər dəvət olunur".

Dekan əlavə etdi ki, tələbələr nəzəri biliklərlə yanaşı, praktik vərdişlərə də yiyələnmək üçün universitetimizin nəzdində fəaliyyət göstərən klinikaların və Bakı Sağlamlıq Mərkəzinin imkanlarından yararlanırlar. Belə ki, tələbə klinik halları əyani görməli, xəstə ilə yaxından tanış olmalıdır: "Amma təəssüflər olsun ki, bəzən xəstə çatışmazlığı ucbatından biz bunu lazımınca edə bilmirik. Məlum olduğu kimi, tibb daim inkişaf edən bir sahədir. Tutaq ki, bir metodika və ya protokol qaydası bu il özünü doğruldursa, iki-üç ildən sonra yararsız da ola bilər. Çünki hansısa ağırlaşma və ya fəsad üzə çıxdıqda, ləğv olunur. Bu kimi məsələlər də tələbələrin diqqətinə çatdırılır".

İsrail müəllim tədrisin keyfiyyətinin daha da yüksəlməsinə xidmət edəcək mühüm bir məsələyə də toxundu. Bildirdi ki, hər bir fənn üzrə bir ana kitab olmasına çalışırlar: "Rektorumuz Gəray Gəraybəyli tərəfindən bu məsələ müzakirə olunur, bu istiqamətdə hazırda işlər gedir. Bu, həyata keçəndən sonra proqramımız və hazırlayacağımız testlər həmin ana kitab üzərində qurulmalıdır ki, sonradan problemlərlə üzləşməyək. Tələbə isə əlavə nə oxuyub öyrənərsə, bu onun xeyrinə ola bilər. Belə ana kitablar artıq kafedralarda hazırlanır".



Digər vacib məsələ tələbələrin dərsə davamiyyəti, nizam-intizamlı olmasıdır. Adətən 1-ci kursun tələbələri ilə belə problemlər yaşanır. Amma əməkdaşlar mütəmadi şəkildə onlara izahatlar verir, qaydalara riayət etmək vərdişi yaradırlar. Qeyd edək ki, bu, universitet rəhbərliyinin daim diqqət mərkəzində olan məsələlərdən biridir.

Söhbətimizin sonunda İsrail müəllim bu yaxınlarda Şuşaya səfər etməsindən danışdı. Söylədi ki, tələbə vaxtı və bir də 33 il sonra Şuşada olması onda kövrək duyğular yaradıb: "Şuşada 1991-ci ilin iyun-avqust aylarında olmuşdum. Onda Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri idim. Qarabağ zonasından – Malıbəyli, Kərkicahan, Xocalı, Laçın, Ağdamdan olan tələbələri "Tələbə inşaat" dəstəsi nəzdində ora aparmışdıq. O zaman hadisələrin mürəkkəb, gərgin olduğu dövr idi, Şuşaya gediş-gəliş asan deyildi. Hərbi qaydalar hökm sürürdü. Rus hərbçiləri BTR-lə bizi aparır, təhlükəsizliyimizi təmin edirdilər. Universitet üzrə rəhbərimiz Anatomiya kafedrasının professoru Mübariz Allahverdiyev idi. O, Şuşanın tarixini gözəl bilirdi, bizə maraqlı söhbətlər edirdi. Düzdür, özüm də dağlıq bölgədə anadan olmuşam, amma Şuşa mənə qeyri-adi təsir bağışlamışdı. Azər adlı tələbə yoldaşım var idi, Laçının Minkəndindən idi. Onlara da getmişdik.

Laçınla Şuşa işğal ediləndən sonra o yerlərin çox həsrətini çəkdim. Torpaqlarımız işğalda olanda, hərdən öz-özümə deyirdim ki, kaş, Şuşa alınaydı, gedib o yerləri bir də görəydim. Bəzən Şuşadan ötrü burnumun ucu göynəyirdi...

Şükürlər olsun ki, torpaqlarımızı düşmən tapdağından azad etdik, Şuşaya qovuşmaq nəsib oldu. 33 il əvvəl silahlı rus əsgərlərinin nəzarəti altında getdiyimiz Şuşaya, bu dəfə başqa ovqatda getdim. Artıq bu torpaqlarda öz polislərimiz, öz hərbçilərimiz xidmət göstərir. Əvvəlki qorxu, təlaş yoxdur. Oranı ziyarətə gələnlərin çöhrəsində sevinc, fərəh gördüm. Şəhərdə sürətlə tikinti-quruculuq işlərinin getdiyini görəndə də çox qürurlandım. Şuşa həmişə gözəldir, möhtəşəmdir. Bunu bizə yaşadan Ali Baş Komandanımıza, qazilərimizə cansağlığı arzulayır, şəhidlərimizə Allahdan rəhmət diləyirəm!"

**Q.ABDULLAYEV**

# I kursa qəbul olunan tələbələrlə fakültələrdə görüşlər keçirilib

## ATU ailəsinin yeni üzvlərinə zəruri məlumatlar verilib

**Hər il olduğu kimi, tədris ilinin başlanması münasibətilə sentyabrın 13-də Azərbaycan Tibb Universitetinə yeni qəbul olunmuş tələbələrlə tanışlıq xarakteri daşıyan ənənəvi görüşlər keçirilib. Görüşlərdə fakültə dekanları, dekan müavinləri, eləcə də tələbə sevincini yaşayan gənclərin valideynləri iştirak ediblər.**



I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov tələbə adını qazananları və onların valideynlərini təbrik edib, ürək sözlərini dilə gətirib. Dekan tələbəlik həyatı və tədrislə bağlı bir sıra zəruri məsələləri diqqətə çatdırıb və onları nizam-intizamlı olmağa çağırıb. Görüş iştirakçılarına universitetin tədris binaları, klinikaları, yataqxanaları, idman kompleksi, elektron saytı, qəzeti və kitabxanası haqqında ətraflı məlumat verən E.Novruzov, gənclərə təhsil alacaqları fakültənin kafedraları, professor-müəllim heyəti və eləcə də elmi-pedaqoji nailiyyətləri haqda söhbət açıb.

I kurs tələbələri universitetin daxili qaydaları, tədris sistemi, imtahan prosesi, ali məktəbdə son illərdə aparılan islahatlar barədə də məlumatlandırılıb.

* * *

Növbəti görüş İctimai səhiyyə fakültəsinə qəbul olunan tələbələr və onların valideynləri ilə keçirilib. Fakültənin dekanı, dosent Qalina Qəniyeva və dekan müavini Nailə Məmmədova tələbələrə boloniya kredit sistemi, qiymətləndirmə, kredit borcu və s. barədə ətraflı məlumat veriblər. Onlar tələbələrin gələcəkdə savadlı və peşəkar həkim kimi yetişməsi üçün daim öz üzərilərində işləməsinin vacibliyini söyləyiblər. ATU-nun mövcud maddi-texniki bazası, ictimai təşkilatları, daxili intizam qaydaları, aparılan mühazirələr, praktiki seminarlar və imtahan prosesi barədə də tələbələr hərtərəfli məlumatlandırılıb. Onlar I kurs tələbələrini ilk gündən dekanlıqla səmimi ünsiyyət qurmağa, universitetin ictimai həyatında fəal iştirak etməyə çağırıblar.

* * *

Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva universitetimizə yeni qəbul olunmuş tələbələri təbrik edərək, onlara uğurlar arzulayıb. Dekan fakültənin tərkibində olan kafedraların fəaliyyəti, tədris prosesinin təşkili, nizam-intizam qaydaları haqqında məlumat verib. O, tələbələri dərslərə ciddi hazırlaşmağa, hər zaman yeni biliklərə açıq olmağa çağırıb.

Fakültə nümayəndələri tələbələri müxtəlif məsələlərlə bağlı məlumatlandırıb, onların suallarını cavablandırıblar. Görüşdə gələcəyin diş həkimlərinə stomatologiya sahəsinin insanların həyatındakı mühüm rolundan bəhs edilib.

* * *

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli də tələbələri və onların valideynlərini təbrik edərək, gələcək həkimlərə ATU-dakı təhsil prosesi, daxili qaydalar haqqında danışıb. İ.Məhərrəmbəyli həkim peşəsinin nə qədər müqəddəs və məsuliyyətli peşə olmasından söhbət açıb.

Görüşdə tibb elmi və II Müalicə-profilaktika fakültəsinin fəaliyyətindən bəhs edən tanıtım çarxı nümayiş olunub, tələbələrə zəruri məlumatlar verilib.

* * *

Daha bir görüş Əczaçılıq fakültəsinin yeni tələbələri ilə keçirilib. Fakültənin dekanı, dosent Fərəh Mədətli gəncləri təbrik edərək, bu şərəfli peşəyə yiyələnmək yolunda onlara uğurlar diləyib.

Dekan tələbələrə ATU-nun, o cümlədən Əczaçılıq fakültəsinin keçdiyi tarixi inkişaf yolu barədə məlumat verib. O, 1938-ci ildə görkəmli dövlət xadimi Əziz Əliyev



tərəfindən Azərbaycanda Əczaçılıq İnstitutunun yaradıldığını xatırladaraq bildirib ki, qonşu dövlətlər arasında yeganə ölkə idik ki, əczaçılıq təhsili üçün ayrıca bir institut təsis olunmuşdu. 1942-ci ildən Əczaçılıq İnstitutu Tibb İnstitutunun nəzdində fakültə kimi fəaliyyətini davam etdirir. Universitetimizin beynəlxalq akkreditasiyadan keçməsinin üstünlüklərindən də danışan fakültə dekanı məhz bu səbəbdən diplomlarımızın bir çox xarici ölkələrdə tanındığını diqqətə çatdırıb.

Yeni tələbə adını qazanmış gənclər dərs keçəcəkləri tədris korpusları, universitet klinikaları, dərs prosesi, imtahan sistemi haqqında da məlumatlandırılıb. Onlara içərisində tələbə bileti, müqavilənin bir nüsxəsi və universitetin himni olan konvertlər təqdim edilib.

Qeyd edək ki, görüşlərdən sonra I kurs tələbələri və onların valideynləri fakültə əməkdaşlarının müşayiəti ilə universitet şəhərciyini gəzib, tədris korpusları və auditoriyalarla əyani tanış olublar.



# Kursantlar vətənə sədaqət andı içiblər





**Sentyabrın 14-də Mərkəzi Hərbi Klinik Hospitalın ərazisində ATU-nun Hərbi tibb fakültəsinin kursantlarının andiçmə mərasimi keçirilib. Şəxsi heyətin düzülüşü barədə məruzə edildikdən sonra Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.**

Təntənəli andiçmə mərasimini Hərbi tibb fakültəsi rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə baş köməkçisi, polkovnik-leytenant Yaqub Qasımov açaraq təbrik nitqi üçün sözü fakültənin rəisi vəzifəsini icra edən tibb xidməti polkovniki Məharət Rzayevə verib. İlk növbədə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin və Milli Müdafiə Universitetinin rektoru, polkovnik Gündüz Əbdülovun salamlarını və təbriklərini tədbir iştirakçılarına çatdıran polkovnik M.Rzayev, fakültənin hərbi həkim ixtisası hazırlığı kursunun V kursu və feldşer hazırlığı kursunun I kursu olaraq hərbi and içən gənc kursantlara uğurlar arzulayıb.

Azərbaycan ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması üçün görülən işlərdən danışan polkovnik, orduda yüksəkixtisaslı peşəkar həkimlərə ehtiyac olduğunu nəzərə alaraq, Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə 25 may 2000-ci ildə Azərbaycan Tibb Universitetinin nəzdində Hərbi tibb fakültəsinin yaradıldığını xatırladıb. Bildirib ki, fakültənin məzunları öz bilik, bacarıq və təcrübələrindən istifadə edərək hərbi qulluqçulara zəruri tibbi yardım göstərirlər.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və qətiyyətli idarəetməsi, rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsinin möhtəşəm qələbə ilə başa çatdığını söyləyən polkovnik, bu qələbənin əldə olunmasında hərbi həkim personalının xidmətlərini də yüksək qiymətləndirib: "Ordumuzun daha da qüvvətli olması üçün onun sıralarına yeni nəfəs, yeni ruh və döyüş əzmi gətirilməlidir. Düşmən həmişə hiss etməlidir ki, siz hər sahədə ondan üstünsünüz, vətənə sədaqətiniz, ana torpağa, ailəyə bağlılığınız, xalqımıza və dövlətimizə məhəbbətiniz sonsuzdur".

Hərbi həkim ixtisası hazırlığı kurslarının V kurs kursantı Fazil Umudzadə hərbi and içərkən onlara nə qədər böyük və şərəfli bir iş tapşırıldığını yaxşı anladıqlarını deyib: "Ordu dövlətin ən mühüm atributudur. Orduda xidmət etmək, vətənin keşiyində durmaq, onun ərazi bütövlüyünü, suverenliyini qorumaq hər bir vətəndaşın borcudur. Biz gənc kursantlar Hərbi anda, xalqımıza və vətənimizə həmişə sadiq olacaq, insanların sağlamlığı yolunda əlimizdən gələni əsirgəməyəcəyik".

Hərbi andı qəbul edən kursantların valideynləri adından ehtiyatda olan polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək, oğlu Kənanın hərbi həkim peşəsini seçməsindən qürur duyduğunu, gənc kursantların Azərbaycan ordusunda hərbi həkim kimi çalışmaqla valideynlərinin başını uca edəcəklərinə əminliyini vurğulayıb.

Hərbi tibb fakültəsinin bütün tədbirlərinə böyük həvəslə qatılan Tibbi mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi Səidə Hacıyeva kursantların vətənə sədaqət andı içməsinin onda fəxarət hissi yaratdığını söyləyib.

**İordaniyanın tanınmış üz-çənə cərrahı, Beynəlxalq Üz-Çənə İmplantologiya Şurasının (International Board of Oral Implantology) prezidenti, "Tamimi" Akademiyasının sədri və təsisçisi, professor Mazen Tamimi Tədris Stomatoloji Klinikanın qonağı olub.**

# Stomatoloji klinika beynəlxalq əlaqələrini genişləndirir



Tanışlıq ziyarəti zamanı klinikanın direktoru İmran Ağayev qonağa ATU-dakı tədris proqramı, klinikada dərs prosesinin təşkili haqqında ətraflı məlumat verib. Eyni zamanda, professor Mazen Tamimi klinikanın strukturu, şöbələri və kafedralarının işi, müəssisənin maddi-texniki bazası, infrastrukturu haqqında da məlumatlandırılıb.

İ.Ağayev ölkəmizdə stomatologiyanın inkişafı istiqamətində görülən işlər və bu sahədə yüksəkixtisaslı kadrların yetişdirilməsi üçün həyata keçirilən tədbirlər haqqında da danışıb, klinikada bütün əsas stomatoloji sahələr üzrə çoxillik təcrübəyə malik yüksək ixtisaslı mütəxəssislərin fəaliyyət göstərdiyini qeyd edib.

Səmimi qəbul üçün təşəkkür edən dr. Mazen Tamimi iki ölkənin tibbi təhsil müəssisələri arasında əməkdaşlıq və mübadilə proqramlarından söz açıb. O, ikitərəfli münasibətlərin genişləndirilməsinin Azərbaycan və İordaniyadan olan stomatoloqların təcrübə mübadiləsinin inkişafına böyük töhfə olacağını bildirib. Görüş zamanı ATU ilə "Tamimi" Akademiyası arasında əməkdaşlıq perspektivləri də müzakirə olunub.

Daha sonra qonaq Tədris Stomatoloji Klinikada tələbə və rezidentlərin keyfiyyətli təhsili və praktikası üçün yaradılan şəraitlə tanış olub. Burada terapevtik, cərrahi, ortopedik stomatologiya və digər tibbi sahələr üzrə göstərilən xidmətlər haqqında məlumatlandırılıb.

# ATU-nun professorunun çıxışı böyük maraqla qarşılanıb




**Türkiyənin İzmir şəhərində "Avrasiyanın biomüxtəlifliyinin qorunması" mövzusunda II Beynəlxalq konfrans keçirilib. Zəngin proqrama malik konfrans üç gün davam edib. Tədbirə Azərbaycan, Türkiyə, Özbəkistan və Qırğızıstandan nümayəndələr qatılıb.**

Azərbaycandan 23 alimin iştirak etdiyi tədbirə biomüxtəlifliyin, fotosintetik orqanizmlərin, göbələk və bakteriya kimi mikroorqanizmlərin mühafizəsi, su ekosistemlərinin monitorinqi, iqlim dəyişikliyi kimi mövzularda ümumilikdə 110 məruzə təqdim olunub.

Azərbaycan Tibb Universitetinin Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizova beynəlxalq konfransda "İkinci tip şəkərli diabet zamanı oksidativ stresin təsiri, sitokinlar və antimikrob peptidlərlə qarşılıqlı əlaqəsi" mövzusunda çıxış edib. Əməkdaşımızın çıxışı böyük maraqla qarşılanıb, o, çoxsaylı sualları cavablandırıb.

Bununla yanaşı, nümayəndə heyətimiz bölmə rəhbəri professor Cenk Selçuki və fakültə rəhbəri professor Dinçer Ayaz ilə görüşlər keçirib. Onların iştirakı ilə türk dövlətlərinin Biokimyaçılar cəmiyyətinin yaradılması planlaşdırılır. Təşkilat komitəsinin üzvlərindən biri Azərbaycan olacaq. Onu da qeyd edək ki, Azərbaycan Tibb Universitetinin Ege Universiteti ilə əməkdaşlıq memorandumu var.

Konfransın bağlanış mərasimində Azərbaycan nümayəndə heyətinin yüksək səviyyədə çıxışı xüsusi vurğulanıb. Ümumən Azərbaycan alimlərinin 70 məruzəsi konfransın materialları toplusuna daxil edilib.

# Əməkdaşımız Beynəlxalq Tibb Təhsili Konfransında iştirak edib

**ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasının assistenti Bənövşə Hüseynova avqustun 24-dən 28-dək İsveçrənin Basel şəhərində təşkil olunmuş AMEE-2024 Beynəlxalq Tibb Təhsili Konfransında iştirak edib.**




Məlumat üçün bildirək ki, AMEE – Tibb Təhsili üzrə Beynəlxalq Assosiasiyası (The International Association for Medical Education) diplomdan əvvəl, sonra və davamlı tibbi təhsil boyu tibb və sağlamlıq elmləri ixtisaslarında mükəmməl təhsili təşviq edərək, qlobal tibb xidmətini dəstələyən bir cəmiyyətdir. Cəmiyyətə 90-dan çox ölkə üzvdür. Hər il AMEE-nin təşkil etdiyi elmi-praktik toplantılarda hazırkı tibb təhsilinin vəziyyəti, müəllimlərin və qurumların təhsil fəaliyyətləri, krikulumların planlanması, qiymətləndirilməsi, tədris üsulları, qiymətləndirmə texnikaları və təhsilin idarəolunması mövzuları müzakirə olunaraq yeni təkliflər irəli sürülür.

Bu il təşkil olunan AMEE-2024 konfransında yeni mərhələyə çatılaraq, 92 ölkədən sağlamlıq peşələri üzrə təhsilin inkişafına qlobal marağı nümayiş etdirən rekord sayda - 4400 təqdimat və xülasə qəbul edilib.

Assistent Bənövşə Hüseynova da AMEE-2024 konfransında "Telemedicine Transformations: Navigating the Impact of Communication on Healthcare Delivery" mövzusunda araşdırmasını təqdim edib. Təqdimatda ATU-nun Müalicə-profilaktika fakültəsinin bütün kurslarında təhsil alan tələbələrin teletibb vasitəsilə həkimlərarası və həkim-pasiyentarası ünsiyyətə yanaşmaları dəyərləndirilib.

Tədqiqat zamanı istifadə olunan "Teletibb vasitəsilə həkimlərarası və həkim-pasiyentarası ünsiyyət" anketi qoyulan hədəfə uyğun formalaşdırılıb. Belə ki, anket şəxsi məlumatlara aid 6 sual, informasiya kommunikasiya texnologiyaları haqqında ümumi bilik səviyyələrinə aid 3 sual, teletibb haqqında 12 sual, teletibb zamanı həkimlərarası ünsiyyətə aid 11 sual, teletibbdə həkim-pasiyentarası ünsiyyətə aid 9 sual , teletibbdə olan çəkinliklərlə bağlı 4 sualla dəyərləndirmədən ibarətdir. Tədqiqatın dizaynı kimi çarpaz tədqiqat üsulu (The Cross sectional) seçilib. Cavabları analiz olunan 1457 tələbənin 554 nəfəri telepsixiatriya, 622 nəfəri telekonsultasiya, 476 nəfəri teletəcili, 491 nəfəri analiz və laboratoriya işləri, 332 nəfəri teleradioloji, 287 nəfəri telenevrologiya sahəsini daha uyğun hesab edib. "Teletibbə nə vaxt ehtiyac duyulur" sualını isə həkimlərə çatmaq çətin olduqda, uzaq yerlərdə yaşayanlar, əlil və yaşlı xəstə təqibləri zamanı, xroniki xəstələrə dərmanların müntəzəm istifadəsi vaxtı, xəstələrin əvvəlki müayinə nəticələri, əməliyyat məlumatlarını bilmək məqsədilə və s. kimi cavablandırıblar. Teletibdən istifadənin artmasını texnologiyaların sürətli inkişafı, ağıllı tətbiqlərin artması ilə əlaqələndiriblər. Tibbi məsləhətləşmələr üçün videozənglərdən və ya digər rəqəmsal platformalardan istifadə etmək qismən rahat olsa da, həkim-pasiyent münasibətində canlı ünsiyyəti vacib hesab edirlər. 464 (42,3%) nəfər teletibbin gələcəkdə ənənəvi həkim-xəstə münasibətinə müsbət, 189 (17,2%) nəfər mənfi təsir edəcəyini, 355 (32,4%) nəfər qismən təsir edə biləcəyini seçib. Həkimlərarası ünsiyyətdə rolunu isə 686 nəfər (62,5%) orta, 355 nəfər (32,4%) əla, 56 nəfər (5,1%) pis qiymətləndirib.

**Yay tətili bir göz qırpımında gəlib keçdi. Artıq böyüklər də, uşaqlar da yeni dərs ilinin astanasındadır. Heç kimə sirr deyil ki, uzun istirahətdən, sərbəstlikdən, fiziki fəallıqdan sonra uşaqların tədris şəraitinə uyğunlaşması heç də asan olmur. Yuxudan erkən oyanmalar, dərslər, ev tapşırıqları, hər cür dərnəklər və s...**

# Yay tətilindən sonra uşaqların məktəbə adaptasiyası

## Şagirdlərin sağlamlığı və yüksək iş qabiliyyəti yuxu rejimindən geyimədək bir çox faktorlardan asılıdır



Bütün valideynləri yeni dərs ilinə hazırlıq, uşaqların məktəbə adaptasiyası, sağlamlıqlarının qorunması kimi suallar düşündürür. Bu məsələlərlə bağlı ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva valideynlərə bir neçə məsləhət verib.

O bildirib ki, hər şey valideynlərin övladlarına məktəbli geyimi, çanta və dərs ləvazimatları almasından başlayır: "Düzgün seçim uşağın təlim prosesi zamanı təhlükəsizliyini və rahatlığını təmin edir. Məktəbli paltarı və ayaqqabısı alındıqda, onların nişanlanmasına fikir vermək lazımdır. Nişanlanmada parçanın tərkibinə xüsusi diqqət yetirilməlidir. Çünki uşaq geyimlərinin ən azı 50%-ni təbii materiallar təşkil etməlidir. Məktəbli paltarının gigiyenik keyfiyyət sertifikatı olmalıdır. Məktəbli forması uşaqlar üçün komfort olmalı, sərbəst hərəkətə manеə yaratmamalı və bədəni sıxmamalıdır.

Ayaqqabıların təhlükəsizliyi istifadə olunan materialların rəng sabitliyi, həmçinin ayrılan zərərli maddələrin konsentrasiyası və bir sıra fiziki-mexaniki xassələrlə (çəki, elastiklik, alt hissələrin bərkidilmə gücü, pəncənin deformasiyası, dabanı və dəri məmulatlarının tutacaqlarının bərkidilmə yerlərinin qırılma yükü) ölçülür. Ayaqqabılar ciddi şəkildə ölçüsünə görə seçilməlidir – düzgün seçilmiş ayaqqabıda baş barmaqla ayaqqabının ön hissəsi arasında 5-7 mm məsafə olur. Ayaqqabılar bioloji və mexaniki təhlükəsizlik tələblərinə cavab verməli, ayağı tərlətməməli, su keçirməməli, altlığı sərt, dabanı 3-5 sm-dən çox olmamalıdır.

Məktəbli portfelləri və kürək çantaları davamlı materialdan hazırlanmalı, boş vəziyyətdə çəkisi 0,7-1 kq-dan çox olmamalı, öndə, yan səthlərdə və üst qapaqda əks rəngli materiallardan hazırlanmış işığı əks etdirən elementlərə malik olmalı, kürək çantaları kürəyin formasına uyğun arxa hissə ilə təchiz olunmalı, kəmərləri enli və davamlı olmalıdır".

Sözünə davam edən mütəxəssis bildirib ki, görmədə problemlərin yaranmaması üçün məktəblilərə rəsmi nəşriyyatlar tərəfindən buraxılmış dərslik və dərs vəsaitləri alınmalıdır: "Məktəblilərin sağlamlığının möhkəmləndirilməsi və yüksək iş qabiliyyətini saxlanılması məqsədi ilə valideynlər uşaqların gün rejiminin düzgün təşkili və ona riayət edilməsini ciddi nəzarətdə saxlamalıdırlar. Tədrisə başlamamışdan əvvəl valideynlər uşaqların gün rejimini tədricən uyğunlaşdırmalıdırlar. İlk növbədə vacib rejim elementlərindən biri olan yuxu qaydaya salınmalıdır. Yuxu bütün fizioloji sistemlərin, ilk növbədə baş-beyin qabığı hüceyrələrinin fəaliyyətinin tam funksional bərpasını təmin edir. Kiçik yaşlı məktəblilər sutka ərzində 9-10 saat, yeniyetmələr isə 8- 9 saat yatmalıdırlar. Tədqiqatlar göstərir ki, uşağın yuxusu nə qədər az olursa, iş qabiliyyəti də bir o qədər azalır. Nəticədə, məktəblilərdə müvəffəqiyyət göstəriciləri aşağı düşür. Rejim elə təşkil edilməlidir ki, uşaqlar kifayət qədər yuxudan sonra, səhər evdən çıxmağa ən azı 1 saat qalmış oyansınlar. Bu 1 saat onların şəxsi gigiyenasına və səhər yeməyinə sərf olunmalıdır".

1-ci növbədə oxuyan məktəblilər mütləq səhər yeməli, ikinci növbədə oxuyanlar isə nahar edib məktəbə getməlidir. Səhər yeməyi zülalla bol olmalı, əsas yer süd və süd məhsullarına, pendir, yumurtaya verilməlidir. Səhər yeməyində mütləq isti yemək (sıyıq, qayğanaq və s.) olmalıdır. Bu zaman uşağın sevdiyi yemək növlərinə üstünlük verilməlidir. Gün ərzində uşaqların menyusunda heyvan, balıq, quş əti və digər zülallı qidalar olmalıdır. Zülallı ərzaqlar təzə tərəvəz, göyərti, pomidor, xiyar ilə yaxşı uyğunlaşır. Valideynlər uşaqların məktəbdə qidalanmasını da təşkil etməlidirlər. Kiçik yaşlı məktəblilərə məktəbdə qəlyanaltı etmək üçün mövsümdən asılı olaraq təzə və ya quru meyvələr, çərəzlər, keks və ya digər kremsiz, tez xarab olmayan şirniyyat, pendirli buterbrod və bu kimi ərzaqlar, eləcə də mütləq təmiz su qoyulmalıdır.

Məktəbdən gəldikdən sonra uşaqlara isti nahar verilməlidir. Ümumiyyətlə, kiçik yaşlı uşaqlar gün ərzində ən azı 4 dəfə qida qəbul etməlidir: səhər yeməyi, qəlyanaltı, nahar və şam.

Şəhla xanımın sözlərinə görə, məktəblilərin fiziki fəallığını artırmaq üçün gün ərzində hərəki oyunlara kifayət qədər vaxt ayrılmalıdır: "Uşaqlar üçün ən əlverişli və sağlamlaşdırıcı vasitə açıq havada hərəkətli oyunların təşkil edilməsidir. Kiçik yaşlı uşaqlar hər gün 2-2,5 saat, yeniyetmələr isə ən azı 1-1,5 saat açıq havada dinamik istirahət etməlidirlər. Valideynlər uşaqların ev tapşırıqlarına sərf etdiyi vaxtı da düzgün müəyyənləşdirməlidirlər. Kiçiklər üçün bu, 1-1,5 saat, orta siniflər üçün 1,5-2 saat, buraxılış sinifləri üçün isə 2,5-3,5 saatdır. Axşam yuxusundan qabaq 1-2,5 saat asudə vaxt verilməlidir. Bu zaman həyəcanlandırıcı fəaliyyətlər, kompüter oyunları məqsədəuyğun deyil. Rejimin əsas şərtlərindən biri bütün fəaliyyətlərin hər gün eyni vaxtda başlamasıdır. Bu, dinamik stereotipin yaranmasına səbəb olur".



Dosent Ş.Balayeva yuxarıda qeyd olunanlara ali məktəb tələbələrinin də riayət etməsini məsləhət görüb. Tövsiyə edib ki, artıq uşaqlıq dövrünü başa vuraraq gəncliyini yaşayan tələbələr tədris müddətində sağlamlıqlarını qorumaq, yüksək iş qabiliyyətini saxlamaq, uğurlar əldə etmək istəyirlərsə, mütləq normal qidalanmalı, yuxu, dərs və istirahət rejimlərini düzgün qurmalıdırlar.

**M.ƏLƏKBƏRLİ**

# Miqren – səbəbi tam bilinməyən, müalicəsi olmayan xəstəlik

## Qidalanma, yuxu rejimi, irsi faktorlar, ətraf mühit və psixo-emosional amillər diqqət mərkəzində saxlanılmalıdır



**"Miqren başın bir və bəzən hər iki yarısında tutma şəkilli əzabverici ağrıların olması ilə xarakterizə olunan nevroloji xəstəlikdir. Periodik təkrarlanan bu xəstəlik çox geniş yayılıb və qadınlar arasında kişilərə nisbətən 2-3 dəfə çox rast gəlinir. Adətən gənc və orta yaşlarda, 25-45 yaş aralığında təsadüf edir". Bunları "Təbib" qəzetinə Miqrenlə Beynəlxalq Mübarizə Günü ilə əlaqədar ATU-nun Nevrologiya kafedrasının nevroloq-konsultantı, dosent Temraz Nəbiyev söyləyib.**

O bildirib ki, birincili baş ağrılarına aid olan miqren xəstəliyi gedişatına görə aurasız (sadə miqren) və auralı (klassik miqren) olmaqla 2 yerə bölünür: "Xəstəliyin beynəlxalq təsnifatına əsasən, əlavə olaraq miqrenoz status, ağırlaşmış miqren, digər miqren və dəqiqləşdirilməmiş miqren növləri də mövcuddur. Ən çox yayılmış aurasız miqrenin davametmə müddəti 4 saatdan 72 saata qədərdir. Miqren aurası başağrısı tutmalarından öncə əmələ gələn simptomlar kompleksidir. Ən çox görmənin müvəqqəti pozulmaları – işıqlanma, görmə sahəsində ləkələr, əyri xətlər, görmənin itməsi və ya dilin tutulması formasında rast gəlinməklə 1 saat ərzində keçib gedir.

Miqren zamanı müayinələr əlavə bir xəstəlik aşkar etmir. Müxtəlif amillər – səs-küy, fiziki gərginlik, yuxusuzluq, isti-soyuq, menstruasiya, pis qidalanma, telefon, kompüterlə çox məşğul olma, pendir, şokolad, kofeinli, spirtli içkilərin qəbulu, siqaret çəkmə, qida qəbulunu buraxmaq, bədəndə hormonal dəyişikliklər, müxtəlif dərmanların – damar genəldicilərin qəbulu, genetik və ekoloji amillər, hava dəyişkənliyi, barometrik təzyiqin dəyişkənliyi, hündürlük, yuxu pozulmaları miqren tutmalarına səbəb ola bilər".

Həkimin sözlərinə görə, xəstəliyin klinik əlamətləri işıq, səs, qoxunun təsirindən, fiziki gərginlikdən sonra baş verən uzunmüddətli bir və ya ikitərəfli, dərmanların təsirinə çətinliklə tabe olan baş ağrılarıdır. Miqren tutmalarının dəqiq səbəbi məlum deyil. Buna səbəb kimi qan damarları ətafındakı sinir uclarının kimyəvi agentlərin təsirindən qıcıqlanması və qan damarlarının genişlənməsi nəticəsində onların sıxılması hesab edilirdi. Müasir araşdırmalar isə göstərir ki, o amillər ağrı tutmalarını yaratmır, yalnız onu təlqin edə bilər. Tutmalar zamanı təsiredici amillər nəticəsində beyində qan damarlarında dəyişikliklər yaradan müəyyən maddələr ifraz edilir və o da miqren tutmalarının səbəbi kimi qiymətləndirilir.

Sözünə davam edən T.Nəbiyev miqren tutmasının mərhələlərindən və ilkin əlamətlərindən də söhbət açıb: "Prodrom mərhələsi tutmadan bir neçə saat və ya bir gün əvvəl müşahidə edilir. Bu özünü yorğunluq, işığa, səsə, qoxuya qarşı həssaslığın artması, yeməyə həvəssizlik, əhval-ruhiyyənin düşməsi, kəskin susuzluq, qarında köp, qəbizlik və ya ishal şəklində büruzə verir. Daha sonra aura, tutma və tutmadan sonrakı mərhələlər gəlir.

Çox az rast gələnən auralı miqren növlərinə oftalmik və oftalmoplegik miqren aiddir. Bu miqren zamanı göz nahiyəsində güclü ağrı tutması ilə yanaşı, göz almalarının hərəkətlərinin məhdudlaşması, görmə sahəsində qara nöqtələr, dalğalı xətt, göz qarşısında qığılcımların əmələ gəlməsi, tunel görüntüsü, görmənin pisləşməsi, hallüsinasiyalar, əl və ayaqlarda ağırlıq hissi, öz fikrini aydın ifadə edə bilməmək, qulaqlarda küy, qoxu, dad, toxunmada dəyişikliklər müşahidə edilir.

Assosiasiya olunan miqren də auralı miqrenə addir. Bu tutma zamanı əlavə olaraq müxtəlif nevroloji pozulmalar da müşahidə edilir.

Başağrısı tutmaları adətən 2-3 saat və daha çox davam edir. Tutmadan sonrakı mərhələdə yorğunluq, diqqət konsentrasiyasının azalması, həvəssizlik qeyd olunur. Bu əlamətlər bir günədək qalır.

Bəzi gec rast gələnən nevroloji pozulmalar auralı miqreni imitasiya edə bilər. Bunlara aşağıdakılar aiddir: yuxu və onurğa arteriyasının qatlı parçalanması; serebral vaskulitlər; Moya-Moya xəstəliyi; Cadasil (serebral auto-dominant arteriopatiya subkortikal infarkt və leykoensefalopatiya ilə); Melas sindrom (mitoxondrialensefalopatiya laktoasidoz insulta bənzər tutmalar). Qadınlarda hamiləlik zamanı da miqrenin özünəməxsus xüsusiyyətləri mövcuddur".

Xəstəliyin diaqnostikası və müalicəsi haqqında məlumat verən mütəxəssis əlavə edib ki, diaqnostikada xəstələrə gündəlik tərtib etmək məsləhət görülür. Gündəlikdə tutmanın müşahidə edilən bütün simptomları, tutmanı törədən və onu təqlid edən bütün sualların cavabları, ağrının yerləşdiyi yer, onun davametmə müddəti, ailə anamnezi, qəbul edilən dərmanlar, analizlərin cavabları qeyd olunur: "Bu metod diaqnostikanı çox asanlaşdırır. Müalicəsində isə müxtəlif ağrıkəsicilər, qusma əleyhinə preparatlar,



triptanlar, botulinoterapya əhəmiyyətsiz olsa, CGRP antoqonistləri monoklonal anticisimlər (məsələn, erenunumab, entinezumab, frenezumab) öz effektivliyini göstərə bilir. Qepantlar (ubrorepant, rimeqepant) kəskin tutmalarda istifadə oluna bilər. Fizioterapiya, neyromodulyator terapiya (gözüstü sinirin stimulyasiyası) miqrenin tezliyini azaldır. Transkranial maqnit stimulyasiyası, transdemal stimulyasiya, aromoterapiya, manual terapiya da tətbiq edilir.

İdmanla məşğul olmaq pis əhval-ruhiyyəni yaxşılaşdırır, beynə qan axınını nizama salır, ağrıkəsici hormonların - endorfinlərin ifrazını artırır. Bu da idmanın sağlamlıqda böyük rol oynadığını bir daha təsdiqləyir".

Onun sözlərinə görə, qida rejiminin düzgün təşkili də miqrenin profilaktikasında çox önəmlidir. Tərkibində tiramin olan qidalar tutmanın triqqer rolunu oynaya bilir. Tiramin çox saxlanan və yaxud fermentasiyaya məruz qalmış qidaların (qırmızı çaxır, hisə verilmiş kolbasa, şampan şərabı, qalmış pendir, sitrus meyvələri, banan, soğan, qaymaq) tərkibində çox olur.

Eləcə də psixo-emosional vəziyyətdə tutmaların sayı artır, intensivliyi çoxalır. Ona görə də miqrenin müalicə və profilaktikasında bütün bunlar diqqət mərkəzində saxlanılmalıdır.

# "Göz rənginin dəyişdirilməsi qadağan edilməlidir"

## Professor Paşa Qəlbinur bu əməliyyatın çoxlu fəsadlara, hətta kor olmağa səbəb ola biləcəyini deyir

**Bu günlərdə məşhur olan keratopiqmentasiya - göz rənginin dəyişdirilməsi əməliyyatını tənqid edənlərlə yanaşı, ona üz tutanların sayı da az deyil. Daha çox xanımların müraciət etdiyi bu əməliyyatla gözlər istəkdən asılı olaraq mavi, yaşıl rəngə dəyişdirilir.**



"Qafqazinfo" saytı geniş müzakirələrə səbəb olan keratopiqmentasiya ilə bağlı araşdırma aparıb. Məlum olub ki, 40-60 dəqiqə ərzində icra olunan bu əməliyyat ölkəmizdə hər iki göz olmaqla 9000 manata başa gəlir. Seçilən rənglərə görə məbləğ əlavə 1000-2000 manat arta da bilər. Əməliyyatdan sonra xəstəxanada qalmağa ehtiyac duyulmur, pasiyent elə həmin gün evə buraxılır.

Lakin hər şey bu deyilənlər qədər sadə, dəyişən göz rəngləri kimi gözəl deyil. Çünki dəyişən göz rəngi artıq ömürlük sizinlə qalır. Peşmanlıq çəksəniz, bu rəngi yenidən dəyişə bilməyəcəksiniz. Üstəlik, onun sonradan gözlər üçün fəsadlara yol açacağı da istisna deyil.



"The Guardian" yazır ki, əvvəllər bu prosedur xəsarətlərin, infeksiyaların və anadangəlmə xəstəliklərin nəticələrini aradan qaldırmaq, yəni əsasən tibbi məqsədlər üçün istifadə edilirdi. Lakin hazırda keratopiqmentasiya sadəcə gözəllik məqsədilə olunan bir prosedur halını alıb.

Bəs bu əməliyyat necə həyata keçirilir? Həkim lazer və ya iynədən istifadə edərək buynuz qişada kəsik edir və nəticədə irisin təbii rəngini maskalayan yerə piqment yeridir.

Amerika Oftalmologiya Akademiyası cari ilin yanvarında göz rənginin dəyişdirilməsi prosedurlarının doğuracağı təhlükələr barədə xəbərdarlıq yayıb. Bu təhlükələr sırasında buynuz qişanın zədələnməsi, bulanıq görmə, işığa qarşı həssaslıq, görmənin itirilməsi, allergik reaksiyalar, bakterial infeksiyalar, boyanın qeyri-bərabər paylanması, boyanın gözə sızması, boyanın gözə axması səbəbindən rəngin solğunlaşması var.

ABŞ-də göz rənginin dəyişdirilməsi əməliyyatının qiyməti təqribən 12 min dollar təşkil edir. Rusiya daxil, bir çox ölkələrdə isə ümumiyyətlə qadağandır. Böyük Britaniyada bu prosedura kosmetik məqsədlər üçün tamamilə qadağa qoyulub. Bunu etmək istəyənlər isə xarici ölkələrə getməyə məcbur olurlar.

Artıq ölkəmizdə də dəb halını alan bu prosedurun yarada biləcəyi problemlərlə bağlı sayt tanınmış oftalmoloq, ATU-nun Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinurun fikirlərini öyrənib. O bildirib ki, göz rənginin dəyişdirilməsi əməliyyatını etdirən şəxslər gələcəkdə hətta kor ola bilər: "Bu əməliyyatlar demək olar ki, dünyanın bütün inkişaf etmiş ölkələrində qanunla qadağan edilib. Yalnız Kolumbiya kimi ölkələrdə bu qadağa yoxdur. İnkişaf etmiş ölkələrdə bu əməliyyatın yasaqlanmasına səbəb isə odur ki, sağlam gözə döymə (tatu) etmək olduqca təhlükəlidir. Döyməni bədənin müxtəlif hissələrinə edirlər, düzdür, bu da zərərlidir. Lakin gözdə etmək böyük fəsadlara yol açır. Vaxtilə bu əməliyyatın hələ qadağan olunmadığı illərdə dünyanın aparıcı ölkələrində proseduru etdirən tanınmış insanlar, aktyorlar, müğənnilər və başqaları daha sonra onun fəsadları ilə qarşılaşdılar, çox ağır xəstəliklərə tuş gəldilər".

Oftomoloq bu əməliyyatın Azərbaycanda da qadağan olunmasını vacib sayır: "Ən ucqar kənddə yaşayan, heç orta məktəb təhsili belə olmayan bir şəxsə yaxınlaşıb desəniz ki "gəl, sənin gözünə döymə edim, rəngini dəyişim", heç vaxt razılaşmaz. Çünki bunun çox təhlükəli olduğunu başa düşür. Bu gün o əməliyyatı etdirən şəxslər vaxt gələcək ki, peşman olacaqlar. Lakin nəyisə dəyişə bilməyəcəklər. Buna görə də mən istəyərdim ki, əməliyyat qanunla qadağan edilsin. Bu gün ölkəmizdə həmin proseduru edən bir-iki həkim var. Mən özüm çox əməliyyatlar etmişəm və edirəm. Lakin bu əməliyyatı etmirəm. Çünki göz rənginin dəyişdirilməsi əməliyyatı həm günahdır, həm də cinayət. Hər hansı gənc qız, ya da oğlan bu gün toya gedəndə istəyirsə ki gözü fərqli görünsün, bunun üçün kontakt linzalar taxa bilər. Düzdür, onun da gözə zərəri var, lakin müvəqqəti istifadə etmək olar. Amma bu əməliyyatı edəndən sonra çox eybəcər, bulanıq vəziyyət əmələ gəlir. Fəsadlarına isə bir gündən sonra da rast gəlmək olar, bir aydan sonra da. Gənc adam bunu etdirib kor olandan sonra nə olacaq? Artıq heç nəyi dəyişə bilməyəcək. Görməyən gözün rəngi isə nə olursa-olsun..."

Məsələnin bir tərəfi də budur ki, göz rəngini dəyişdirənlər bəzi sənədlərində də dəyişiklik etməli olacaqlar. Bu barədə danışan hüquqşünas bildirib ki, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunda deyilir ki, şəxsiyyət vəsiqəsinə yerləşdirilən elektron daşıyıcıya (çipə) daxil edilən məlumatlarda vətəndaşın gözlərinin rəngi də qeyd olunur. Bu qanunun tətbiqi barədə Əsasnamədə göstərilir ki, vəsiqənin üzərindəki məlumatların səhv olduğu müəyyənləşdirildikdə, vətəndaş şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi üçün bir ay müddətində vəsiqə verən orqana müraciət etməlidir. Nəzərdə tutulmuş hallarda və müddətdə vətəndaş şəxsiyyət vəsiqəsini dəyişmədikdə, şəxsiyyət vəsiqəsi qüvvədən düşmüş hesab edilir.

Bundan başqa, vətəndaşlar xarici pasportlarında da dəyişiklik etməli olurlar.

# Əməkdaşlarımız Çində beynəlxalq konfransda məruzələr oxuyub




**6-8 sentyabr 2024-cü il tarixlərində Cin Xalq Respublikasının Hefei şəhərində Beynəlxalq Urolitiaz Alyansının13-cü konfransı keçirilib. Bu Cəmiyyət dünyada böyrək və sidik axarı daşı xəstəliyinin araşdırılması, müayinə və müasir müalicəsi məsələləri ilə məşğul olan ən böyük təşkilatdır.**

49 ölkədən 800-ə yaxın uroloqun qatıldığı konfransda 120-dən çox elmi məruzə və 23 canlı əməliyyat təqdim edilib. Dünya səviyyəli alimlərin iştirakı ilə yanaşı, urologiyanın canlı əfsanələri sayılan professor Artur Smith (ABŞ), professor Peter Alken (Almaniya), Chawnshang Chang (ABŞ) leksiyalar oxuyublar.

Ölkəmiz beynəlxalq tədbirdə Azərbaycan Tibb Universitetinin iki əməkdaşı ilə təmsil olunub. Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev "Perkutan nefrolitotomiya zamanı istifadə olunan müasir daşqırma sistemləri", Tədris Cərrahiyyə Klinikasının Urologiya şöbəsinin müdiri, dosent Fikrət Əhmədov isə "Azərbaycanda daş cərrahiyyəsinin tarixi" haqqında elmi məruzələr təqdim ediblər.

# Eksperimental metodik işləmə nüfuzlu nəşriyyatda işıq üzü görüb

**ATU-nun Elmi Araşdırmalar Mərkəzinin professoru Ramiz Axundovun rəhbərliyi ilə Farmakologiya fənnindən "Tetraxlormetanla qaraciyərin kəskin patologiya modelinin yaradılması və yeni alınmış fitokompozisiya ilə korreksiyası" adlı eksperimental metodik işləmə işıq üzü görüb. Metodik işləməni mərkəzin dosentləri Sevda Quliyeva, Nigar Quliyeva, Vidadi Xəlilov və Taryel Eyvazov birgə icra ediblər.**



Tədqiqat işi qaraciyər patologiyalarının korreksiyası və müalicəsi üçün yeni kompleks fitopreparatların alınması proqramının bir hissəsidir. Hazırda qaraciyər patologiyaları həzm orqanları xəstəlikləri arasında aparıcı rol oynayır. ÜST-ün məlumatlarına görə, dünyada 2 milyard insanda müxtəlif qaraciyər patologiyaları aşkar olunub. Xəstəliyin yaranmasında əsas səbəblərdən biri müxtəlif hepatotoksiki maddələr – bir sıra dərman preparatları, ətraf mühiti çirkləndirən zərərli kimyəvi maddələr və sənaye tullantılarıdır.

Aparılan tədqiqat işinin əsas məqsədi ağ siçovullarda eksperimental şəraitdə tetraxlormetandan istifadə etməklə kəskin və xroniki qaraciyər hepatiti modelləri yaratmaq və yeni yaradılmış fitokomplekslərin köməyi ilə onların korreksiya və müalicəsidir. Tədqiqatın nəticələri göstərir ki, fitokompleksin təsirindən ağ siçovullarda tetraxlormetanın toksiki, sitoloji və xoleastatik təsiri xeyli zəifləyib. Nəticədə qaraciyərdə regenerasiya prosesləri intensivləşib və funksiyalar xeyli yaxşılaşıb. Bu aspektdən təklif olunan yerli floramızın məhsulu olan dərman bitkilərindən hazırlanmış yeni fitokompleks yüksək hepatotrop və detoksikasiyaedici xüsusiyyətlərinə görə qaraciyərin funksional vəziyyətini tənzimləmə imkanlarının mümkünlüyünü əsaslandırır.

Metodik işləmə 2024-cü ildə Moskvada nüfuzlu "Проблемы науки» adlı nəşriyyatda çap olunub və Beynəlxalq Elmi Elektron Kitabxana (LIBRARY. RU) vasitəsi ilə bir çox ünvanlara göndərilib. Onların sırasında Moskva Dövlət Universiteti, Rusiya Federasiyanın Prezident Administrasiyası, RF Dövlət Duması və s. orqanların kitabxanaları var.

Qeyd edək ki, bu mövzu haqqında məlumat 10-dan çox məqalə və tezislər olmaqla, yerli və beynəlxalq jurnallarda, həmçinin elmi konfranslarda öz əksini tapıb.

# Mamalıq və ginekologiyanın aktual problemləri Şuşada müzakirə olunub



**Bu günlərdə Şuşa şəhərində Mamalıq və ginekologiyanın aktual problemlərinə həsr olunmuş regional tədbir keçirilib. Respublikamızın müxtəlif bölgələrindən mama-ginekoloq, cərrah-ginekoloq, tələbə və həkim-rezidentlərin iştirak etdiyi konfransda bu sahəyə dair aktual məsələlər müzakirə olunub.**

Həkimlər arasında təcrübə mübadiləsinin təmini məqsədilə təşkil olunan tədbirdə Azərbaycan Tibb Universitetinin Tədris Onkologiya Klinikasının süd vəzi üzrə cərrahı t.ü.f.d. Günay Əhmədova da iştirak edib. O, "İrsiyyətində süd vəzi xərçəngi olan qadınların təqib edilmə strategiyası" mövzusu ilə çıxış edərək, konfrans iştirakçılarının suallarını cavablandırıb.

Konfransda uşaqlıq boynu patologiyaları, menopauza dövründə qadınlarda çox rast gəlinən ginekoloji problemlər, hamiləlik dövründə izlənən infeksion ağırlaşmalar, bu sahədəki xəstəliklərin müalicəsinin müasir aspektləri və digər mövzularda mütəxəssislərin məruzələri dinlənilib.

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru Rafiq Çobanovun bu günlərdə 80 yaşı tamam olub.**

# Səmimi insan, təcrübəli pedaqoq, hər kəsin sevimlisi



Çobanov Rafiq Ənvər oğlu 1944-cü ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. 1951-61-ci illərdə Bakı şəhər 15 saylı məktəbdə təhsil alıb. Həmin il N.Nərimanov adına Tibb İnstitutunun Sanitariya-gigiyena fakültəsinə daxil olan R.Çobanov 1967-ci ildə oranı bitirib, təyinatla S.M.Kirov adına Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutuna kiçik elmi işçi vəzifəsinə göndərilib. 1981-ci ilə qədər həmin institutda qrup rəhbəri, laboratoriya müdiri və şöbə müdiri, 1981-ci ildən 1988-ci ilə kimi isə həmin institutun direktor müavini vəzifəsində işləyib.

1975-ci ildə namizədlik dissertasiyasını müdafiə edən Rafiq müəllimə 1976-cı ildə AAK tərəfindən baş elmi işçi attestatı verilib.

1985-ci ildə Moskva şəhərində doktorluq dissertasiyasını müdafiə edib. 1988-ci ildə institutlar birləşdirildikdən sonra V.Y.Axundov adına Tibbi Profilaktika İnstitutunda Parazitologiya şöbəsinin müdiri və aparıcı elmi işçi vəzifələrində çalışan R.Çobanovun 1990-cu ildə professor elmi adı təsdiq edilib. O, 2005-2022-ci illərdə Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri işləyib. Onun kafedraya rəhbərlik etdiyi dövrdə "Tibb tarixi", "Sosial gigiyena və səhiyyənin təşkili" dərslikləri hazırlanıb. Hazırda bu kafedranın professorudur.

Rafiq müəllim 6 monoqrafiya, 24 metodik tövsiyə, 8 müəlliflik şəhadətnaməsi və 273 elmi məqalənin müəllifidir. Onun rəhbərliyi altında 8 nəfər tibb elmləri doktoru, 35 nəfər tibb elmləri namizədi hazırlanıb.

O, 1996-2003-cü illərdə AAK-ın eksperti, bir çox elmi jurnalların redaksiya heyətinin üzvü (Bakı, Moskva, Sankt-Peterburq) olub, hazırda AMEA-nın Problem Komissiyasının üzvü, ATU-nun İctimai sağlamlıq və gigiyena üzrə Problem Komissiyasının sədridir.

Kafedranın kollektivi səmimi insan, təcrübəli pedaqoq, hər kəsin sevimlisi Rafiq müəllimi 80 illik yubileyi münasibətilə təbrik edir, ona bütün doğmalarının, kolleqalarının və sevimli tələbələrinin əhatəsində sağlıqlı ömür, iş fəaliyyətində uğurlar arzulayır.

***İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları***

## Allah rəhmət eləsin!

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Şəyman Həsənovaya qardaşı **İlqar müəllimin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın assisenti Ayla Müseyibovaya əzizi **Zakir müəllimin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Morfologiya və Histologiya şöbəsinin baş elmi işçisi Vidadi Xəlilova qardaşı **Fərzadi Xəlilovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Cərrahi xəstəliklər kafedrasının kollektivi kafedranın əməkdaşı Vüsalə xanıma **atasının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Anesteziologiya və reanimatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Pərisa Xoşbonyaniyə **qaynanasının** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının kollektivi kafedranın baş müəllimi Gülnarə Vəliyevaya əzizi **Solmaz xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tibbi biologiya və genetika kafedrasının kollektivi kafedranın assistenti Aytən Səlimovaya qaynanası **Ayşə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın dosenti Kamran Babayevə atası **Əlövsət Babayevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0015
Sayı 800